Xalq qəzeti .- 2022.- 18 dekabr.

# Ali ruhun zühur günü

## *Ustad Şirməmməd Hüseynovun anadan olmasından 98 il ötdü*



**O, klassik jurnalistikamızın patriarxıdır. Onun çağdaş tariximiz naminə fədakar əməyi mənəvi dünyamızın, varlığımızın gələcək nəsillərə miras qalan misilsiz irsidir. Onun həyatı və yaradıcılığı elmimizdəki, pedaqoji fəaliyyətdəki bənzərsizlikdir, təntənədir. Elə buna görə böyük ustadımızı qədirbilənliklə anmaq, hər birimiz üçün dərin məmnunluq hissi yaradır. Dahi Şirməmməd Hüseynovu yad etmək həm də mənəvi borcumuzdur.**

Şirməmməd Hüseynov şəxsiyyəti Azərbaycan xalqının tapıntısıdır. Onun haqqında keçmiş zamanda danışmaq mümkünsüzdür. Çünki Şirməmməd müəllim keçmişimizi, obrazlı desək, dirildən, dirçəldən, ona məğrur sima qazandıran ucalıq mərtəbəsidir. Dekabrın 17-də bu ucalığın dünyaya gəlişinin, dünyanı rövnəqləndirməyə başlamasının 98-ci ildönümüydü.

Biz uzun illər Azərbaycan Xalq Cümhuriyyətinin varlığından xəbərdar olmadıq. Zaman dəyişdi, onun barəsində biliklərə sahibləndik. Şirməmməd Hüseynov xalqımızın cümhuriyyət dövrü bilgilərinə ideoloji yöntəm verən, ona məfkurəvi status qazandıran dərin zəka sahibidir. O, həmin dövrü qısa zamanda əxz etməmizin fədakar dəstəkçisidir. Əminliklə deyə bilərik ki, Şirməmməd Hüseynovun həyat və yaradıcılığı cümhuriyyət dövrümüzün müasir dövlətçiliyimizə irsiyyət ruhu qazandıran məxəzidir.

Şirməmməd Hüseynov jurnalistika məktəbidir. Onun üçün peşə xalqa xidmət naminə özünütəsdiq meydanıdır. Şirməmməd müəllim o meydanı genişləndirdi, böyütdü və ona ideoloji platforma, cəmiyyət həyatının katalizatoru statusu qazandırmağı bacardı. O, jurnalistikanın həm də milli kimlik və milli şüurun təbliğatçısı və təşviqatçısı mövqeyini vurğuladı. Peşəyə milli mücadilə immuniteti qazandırandı, ali ruhdur Şirməmməd müəllim!

**Ustad Şirməmməd Hüseynovu rəhmətlə anırıq. Ruhu şad olsun!**

***"Xalq qəzeti"***